**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№366/4** **24 iyun 2024-cü il**

**“2024-cü il üzrə auditorların ixtisasartırma kurslarının tədris proqramı və qrafiki”nin hazırlanması barədə**

Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 6.1-ci “2024-cü il üzrə auditorların ixtisasartırma kurslarının tədris proqramının və qrafikinin hazırlanması” barədə bəndinin icrası ilə əlaqədar Palatanın Kadr hazırlığı idarəsi (E.Behbudova) tərəfindən qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış “2024-cü il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramı və qrafiki”nin layihələrini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Kadr hazırlığı idarəsinə (E.Behbudova) və Palatanın Şurası yanında Auditorların ixtisasartırması və peşə təhsili üzrə komitəyə tapşırılsın ki, bir ay müddətində “2024-cü il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramı və qrafiki”nin layihəsi Şura üzvlərinin irad və təklifləri, Palata Şurasının 2024-cü il 24 iyun tarixli 366/3 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditor adı almaq üçün imtahan proqramı və Auditorlar Palatasının üzvləri arasında aparılmış sosioloji sorğunun nəticələri nəzərə alınmaqla yenidən işlənib təqdim edilsin.
2. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**